# Ukrayna Respublikasının Rovno vilayətinin numayəndə heyəti Qəbələdə

## Qəbələ Heyvandarlıq-Südçülük Kompleksində

(Əvvəli 2-ci səhifədə).

Nümayəndə heyəti üzüm emalı zavodundan Qəbələ Heyvandarlıq-Südçülük Kompleksinə gəlmişdir. Burada qonaqlara məlumat verilmişdir ki, ölkənin müxtəlif bölgələrində olduğu kimi Qəbələ rayonunda da yeni istehsal sahələri istifadəyə verilir, rayon və kəndlərdə əhalinin sosial həyat tərzinin yaxşılaşdırılması istiqamətində müntəzəm olaraq ardıcıl tədbirlər həyata keçirilir. Heyvandarlıq-Südçülük Kompleksi də belə müəssisələrdən biridir.

Müəssisənin ümumi dəyəri 12,9 milyon manatdır. Bu layihənin də inşasında dövlətin güzəştli kreditlərindən istifadə olunmuşdur. İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən kompleksin inşasına 3 milyon manat güzəştli kredit ayrılmışdır. Kompleksdə tikinti işlərinin aparılmasına və avadanlıqla təchiz edilməsinə 2011-ci ilin sonunda başlanmışdır. Kompleks sağmal inəklər üçün fermalardan, yem təsərrüfatı, avtopark və digər köməkçi sahələrdən ibarətdir. Müəssisə ABŞ-ın "BouMatic" şirkətinin ferma avadanlığı, avtomatik yönləndirmə və yemləmə sistemləri, birdəfəyə 40 baş inək tutumlu "Paralel" tipli sağım avadanlığı, soyutma sistemləri və digər avadanlıqla təchiz edilmişdir. Hər biri gündəlik 25 litrdən çox süd-



vermə qabiliyyətinə malik 500 baş "Holstein Friesian" cinsindən olan inək gətirilmişdir. Hazırda sağmal heyvanların sayı 660 başa çatdırılmış, onlardan 150 bala alınmışdır. Gələcəkdə kompleksdə sağmal inəklərin sayının min başa çatdırılması nəzərdə tutulur. Qonaqlara məlumat verildi ki, hər inəkdən bir ildə 8 min 500 litr, ümumi fermada isə gündəlik təqribən 15 ton süd sağımı proqnozlaşdırılır. İstehsal olunan süd Qəbələ süd emalı zavoduna göndərilir. Burada ağartı məhsulları istehsal olunur.

Kompleks üçün Qəbələ rayonu ərazisində mövcud əkin sahələri hesabına yem təsərrüfatı yaradılmışdır.

Layihənin icrası nəticəsində 95 nəfər iş yeri ilə təmin olunmuşdur. Burada çalışan mütəxəssislərin bir hissəsi Hollandiyada xüsusi kurs keçmişdir.

## «Qafqaz» Karvansaray otel Kompleksi ilə tanışlıq

Rovno vilayətinin nümayəndə heyətinin üzvləri ölkə başçısı cənab İlham Əliyev tərəfindən 14 avqust 2013-cü il tarixdə açılışı olmuş "Qafqaz Karvansaray" otel kompleksinə də gəlmişlər. Təkcə Qəbələ rayonu üçün deyil, bölgələr üçün də əhəmiyyətli turizm obyekti olan bu kompleks mükəmməl infrastruktura malikdir. Kompleksin təchizatı da ən müasir standartlara uyğundur. Otel beş hektar sahədə inşa edilmişdir.

Tikinti işlərinə 2012-ci ilin mayında başlanmış, bu ilin avqustunda başa çatdırılmışdır.

Oteldə qonaqların rahat istirahəti üçün hər cür şərait yaradılmışdır. Dünyanın inkişaf etmiş ölkələri sırasında mövqeyini daha da möhkəmləndirməyi qarşıya məqsəd qoyan Azərbaycan artıq ən mötəbər beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilmişdir. Bundan başqa, qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirilən respublikamızda turizmin inkişafı da sürətlənir. Hazırda Azərbaycan dövləti bu baxımdan kompleks tədbirlər reallaşdırır. "Qafqaz Karvansaray" otel kompleksi də həmin istiqamətdə atılan əsaslı addımlardan biridir.

Dördmərtəbəli kompleks ən müasir standartlar səviyyəsində inşa olunmuşdur. Otelin zirzəmi hissəsində avtomobil qarajı, camaşırxana, hovuz və digər yardımçı otaqlar vardır. "Karvansaray" otel kompleksi 139 super otaq, 12 ailəvi otaq, 6 kral otağı və 2 əlillər üçün otaq olmaqla 159 otaqdan ibarətdir. Oteldə, həmçinin qapalı üzgüçülük hovuzu, kişi və qadınlar üçün bərbərxana və gözəllik salonları, iki türk hamamı, iki buxar hamamı, iki SPA, iki trenajor zalı, bilyard və tennis zalları, iki sauna və masaj otaqları vardır. Kompleksdə 150 nəfərlik restoran, iclas və konfranslar keçirmək üçün zallar və uşaqların istirahət otaqları fəaliyyət göstərir.

## Turizm sektoru ilə tanışlıq

Rayonun turizm sektoru ilə yaxından maraqlanan nümayəndə heyəti "Qafqaz" Spa və Sağlamlıq Mərkəzinə də baxış keçirmiş, burada olan xidmət növləri ilə maraqlanmışlar.

Nümayəndə heyəti Qafqaz SPA və Sağlamlıq Mərkəzi ilə yaxın bir məsafədə olan Dağ Xizək Yay-Qış İstirahət Kompleksinin tikintisinə də baxış keçirmişlər. Dağlıq ərazidə yerləşən, istirahət üçün bütün əlverişli şəraitə malik olan bu rekreasiya-turizm obyekti Qəbələ şəhərindən təxminən 4 kilometr aralıda yerləşir. Burada kanat yolu və xizəkçilik kompleksi 8 stansiyadan ibarət olacaqdır. Birinci stansiya dəniz səviyyəsindən 950 metr, sonuncu stansiya isə 1920 metr hündürlükdədir. Artıq altı stansiyada quraşdırma işləri başa çatmışdır. Bir-birindən 1414 metr məsafədə və dəniz səviyyəsindən 1250 metr və 1650 metr hündürlükdə olan stansiyalarda quraşdırma işləri aparılmışdır.

Hazırda inşa edilən Dağ-Xizək idmanı bazasının bilavasitə yaxınlığında yerləşən "Qafqaz" Resort otel kompleksi üç otel binasından, SPA sağlamlıq mərkəzindən, əyləncə parkından ibarət olmaqla yay istirahəti üçün bütün imkanlara malikdir. Belə şəraitdə "Qafqaz" Resort otel kompleksində qış istirahət məkanının yaradılması, yəni otelin yaxınlığında dağ-xizək idman növləri üçün kompleksin inşa edilməsi bütün fəsillərdə ekskursiya və digər fəal istirahət imkanlarının mövcudluğu ilə yanaşı, otel yaxınlığında həm də qış idman növləri ilə məşğul olmağa imkan verəcəkdir.

Qəbələ rayonu ilə tanışlıqdan məmnunluqlarını ifadə edən nümayəndə heyətinin üzvləri rayonun füsunkar təbiəti olduğunu vurğulamış, bu yerin geniş turizm potensialı olduğunu qeyd etmişlər.

## Meyvə konserv zavodunda istehsal prosesləri ilə tanışlıq

Rayonda mövcud olan istehsal müəssisələri ilə maraqlanan qonaqlar Qəbələ Meyvə Konserv zavodunda istehsal prosesini yaxından izləmişlər. Məlumat verilmişdir ki, 12 hektar ərazidə yerləşən zavodun istehsal gücünə və texnoloji avadanlığına görə Qafqazda analoqu yoxdur. Zavodda "Tetra Pak" xətti istismara verilmiş, xaricdən gətirilən avadanlıq quraşdırılmışdır. Müəssisənin iş prinsipi xammal qəbulundan başlayaraq hazır məhsulun qablaşdırılmasına qədər bütün prosesləri əhatə edir. Zavodda təxminən 100-ə qədər müxtəlif növdə qablaşdırılmış məhsul istehsal olunur. Məhsullar "Jalə", "Bağdan", "Aycan", "Zolotoy sad" adlı təbii meyvə şirələri, müxtəlif tamlara malik "İce tea-Jalə" soyuq çayları, həmçinin meyvə dilimlərindən ibarət konservlərdir.

Zavod ildə 700 min ton meyvə emal etmək, 210 min ton meyvə şirəsi hazırlamaq gücünə malikdir. Daha sonra qonaqlar zavodda istehsal olunan məhsulların sərgisinə baxış keçirmişlər.

## Bum Qəsəbə Stend və Ox Atıcılığı kompleksində

Nümayəndə heyətinin üzvləri rayonun Bum qəsəbəsindəki stend və ox atıcılığı kompleksinə də baxış keçirmişlər. Bildirilmişdir ki, burada atıcılıq idmanının daha çox yayılan və olimpiya oyunlarına daxil edilən stend atıcılığına da xüsusi yer ayrılmışdır. Kompleksin ərazisində olimpiya yarışlarında tətbiq edilən və bütün texniki inventarlarla təchiz olunan sahə də yaradılmışdır. Burada yarışların izlənilməsi üçün ayrıca tamaşaçı bölməsi qurulmuş, nəticələri qeydə alan elektron tablo yerləşdirilmişdir. Bundan əlavə, klubun ərazisində 1200 kvadratmetr sahədə 10 metrlik, 3 min kvadratmetr sahədə isə 25 metrlik tirlər quraşdırılmışdır. Kompleksin nəzdində uşaq və yeniyetmələr üçün tədris mərkəzi də yaradılmışdır. Ümumilikdə 300 kvadratmetr sahədə silah anbarı, 4,5 hektar ərazidə beş dairəvi və səngər stend atıcılığı meydançası, 4 min kvadratmetr sahədə səkkiz sporting meydançası inşa edilmişdir. Dairəvi və səngər stend atıcılığı avadanlığı Fransadan, sporting avadanlığı İngiltərədən, tir avadanlığı İsveçrədən, elektron tablo isə İtaliyadan gətirilmişdir.

* * *

Qonaqlar sentyabr ayının 11-də Qəbələ şəhəri ilə tanışlığı davam etdirmişlər. Onlar əvvəlcə «Beltmann» piano zavodunda istehsal prosesləri ilə tanış olmuş, sonra şəhərin mərkəzi parkında ucaldılmış Heydər Əliyevin abidəsi önünə tər qızıl gül dəstələri düzmüş və buradan Heydər Əliyev Mərkəzinə gəlmiş, mərkəzdə dahi şəxsiyyətin həyat və fəaliyyətini əks etdirən stendlərlə, şəxsi əşyalarının nümunələri ilə tanış olmuşlar.